Səh. 2 Baş – Azər Musaoğlu
Səh. 3 Sözüylə bütövləşən Xaqani Qayıblı – Afiq Muxtaroğlu
Səh. 5 Stalinin tapşırığı və ya "qlazok"dan özümüzə baxanda – Esmira Ələkbərli
Səh. 6 Günümüzün xəstəliyi – Aytən Fətullayeva
Səh. 2 Xocalı faciəsi – Xatirə Daşdəmirova
Səh. 4 "ALİ TƏHSİL HAQQINDA" QANUNDA HANSI DƏYİŞİKLİKLƏR EDİLƏCƏK?
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

29 FEVRAL 2024-CÜ İL
№ 09 (199)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## QIRMIZI ORDUNUN GÜRCÜSTANI İŞĞALINDAN 103 İL ÖTÜR



Fevralın 25-i Gürcüstanda sovet işğalının 103-cü ildönümü tamam olur. Gürcüstan Demokratik Respublikasının (GDR) qırmızı ordu tərəfindən işğalının ildönümü ilə əlaqədar gecə saatlarından etibarən parlament binası, hökumət administrasiyası, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, eləcə də ölkə ərazisindəki digər dövlət və hökumət binalarında dövlət bayrağı endirilib.

Qeyd edək ki, 1921-ci il fevralın 25-də qırmızı ordu Tbilisiyə daxil olub və Gürcüstan Demokratik Respublikasını işğal edib.

Gürcüstan parlamentinin 21 iyul 2010-cu il tarixli qərarı ilə fevralın 25-i ölkədə sovet işğalı günü elan olunub.

Hər il fevralın 25-də işğalın yüz minlərlə qurbanının xatirəsinə ehtiram əlaməti olaraq dövlət bayrağı endirilir.

## İRAKLİ KOBAXİDZE TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbayı qəbul edib.

Bu haqda Gürcüstanın Hökumət Administrasiyası məlumat yayıb.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri diqqət mərkəzində olub. Gürcüstan ilə Türkiyə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və regional geostrateji layihələrdə birgə iştirakın gücləndirilməsinin vacibliyi qeyd edilib.

Bildirilib ki, hazırda həyata keçirilən regional layihələrdə hər iki ölkənin fəal iştirakı bu əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

Söhbət zamanı regiondakı vəziyyətə və mövcud çağırışlara da toxunulub. Qeyd edilib ki, regionun gələcək inkişafı və daha da çiçəklənməsi üçün sülh və sabitliyin, təhlükəsizliyin bərqərar olunması mühüm əhəmiyyətə malikdir.

İ.Kobaxidze Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyinə görə Türkiyə dövlətinə minnətdarlığını bildirib.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ NATO-NUN BAŞ KATİBİ VƏ Aİ ŞURASININ PREZİDENTİ İLƏ REGİONDAKI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİB




Baş nazir İrakli Kobaxidze Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşüb.

Gürcüstan Hökumət Administrasiyasının yaydığı məlumata əsasən, NATO-nun Brüsseldəki mənzil-qərargahında keçirilən görüşdə Gürcüstanın Avro-Atlantik inteqrasiyası və digər məsələlər diqqət mərkəzində olub.

Məlumatda bildirilib ki, görüşdə tərəflər NATO-Gürcüstan münasibətlərinin gündəliyini müzakirə edib, inteqrasiya istiqamətində atılan addımları ümumiləşdirib və gələcək əməkdaşlıq üçün konkret planları müzakirə ediblər. Qara dənizdə və Cənubi Qafqazda təhlükəsizlik məsələləri də diqqət mərkəzində olub. Bu kontekstdə ümumi Avro-Atlantik təhlükəsizliyin təmin edilməsində Qara dəniz regionunun sabitliyinin vacibliyi vurğulanıb.

İ.Kobaxidze və Y.Stoltenberq regionda, həmçinin dünyada mürəkkəb təhlükəsizlik mühitini, mövcud problemlərin həlli yollarını da müzakirə ediblər.

Səfər çərçivəsində İrakli Kobaxidze həmçinin Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişellə də görüşüb. Görüşdə Gürcüstan ilə Aİ arasında münasibətlər, əməkdaşlığın gələcək perspektivləri diqqət mərkəzində olub.

Tərəflər Gürcüstanın işğal olunmuş ərazilərindəki mövcud vəziyyəti müzakirə ediblər. Baş nazir Aİ-yə Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü qətiyyətlə dəstəklədiyinə görə təşəkkür edib və Rusiya-Gürcüstan münaqişəsinin sülh yolu ilə həlli prosesində Avropa İttifaqının daha fəal iştirakının zəruriliyini qeyd edib.



Görüşdə Cənubi Qafqaz regionunda və dünyada baş verən proseslər, təhlükəsizlik mühiti, mövcud çağırışlar, davamlı sülhün bərqərar olması üçün atılacaq vacib addımlar diqqət mərkəzində olub.

Tərəflər Gürcüstanın Avropa İttifaqına daxil olması prosesini və Gürcüstanın bu yolda həyata keçirəcəyi islahatların gündəliyini müzakirə ediblər.



# BAŞ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Başların ayaq olub, ayaqların baş olduğu bir dövrdə balığın başdan iylənməsi təbii, bioloji prosesdir. Ayaqla başın yeri səhv düşəndə iylənmiş balığın qoxusu ilə ayaq iyi də bir-birinə qarışır, başdan iylənən balıq ayaq qoxusu verir, bilmirsən, iylənən balığın başıdır, yoxsa ayağın qanqren olmuş baş barmağı...

Bunun elə də fərqi yoxdur, yəni pis qoxu, üfunət istər iylənmiş başdan gəlsin, istərsə də çürümüş ayaqdan – necə deyərlər, mahiyyət etibarilə eynidir: ürək bulandırır, ikrah yaradır və sair.

Amma təki baş ol, istərsən lap soğan başı ol. Bunu da yaxşı-yaxşı yadında saxla ki, başı baş edən – ayaq, ayağı ayaq edən – dayaqdır. Ona görə da, "bədənin qanqren verən yerini kəsib atarlar" məsləhətinə-zada, ayağın pis qoxumasına-filan fikir vermə, bacardığın qədər ayaq yığ ətrafına ki, baş olasan, başda olasan, başqan olasan, amma başdan olmayasan...

İndi bildinmi şəhərimiz niyə pis qoxuyur? – Çünki balıq başdan iylənər. Çünki iylənmiş başların sayı çoxalıb. Çünki başla ayağın yeri səhv düşüb. Çünki "bir tikə çörək xatirinə, yüz tikə p...x yeyir müasir insan" (Xaqani Hass)...

Bəli, bacarana baş qurban deyirsən. Baş əyməklə başın ağrımadığını da bilirsən. Bunu da bilirsən ki, "bilmirəm" – baş ağrıtmaz...

Qoy bir-ikisini də mən deyim. Başa qoyulubsansa (başa mindirilibsənsə) heç vaxt bilmədiyin işə başını soxma. Onun-bunun həyatını dürtmək üçün bəslədiyin uzun burnun girmədiyi yerə də başını soxma. Ümumiyyətlə, gərək səni başa qoymaq (başa mindirmək) istəyənlərlə şərti şumda kəsəydin ki, səni meyvəsinə əlin çatacaq ağacın başına mindirəydilər. Əks halda, gərək kiminsə belinə minib dərəsən o meyvələri.

Başı boş olanın sözünün baş olmamasını da unutmayasan gərək. Yaxşısı budur az danış, qoy sənin yerinə altına yığdığın ağlı topuğunda olan ayaqlar danışsınlar. Gördün ayaqlar da dayaq ola bilmir, daş atdırıb başını tut, kimə dəyər-dəyər, "baş onun, daş bunun, mənimki görməməkdir" deyib gözlərini yum. Onsuz da başda oturanın bəy olmadığını bütün el bilir. Bəy ilə bəy savaşanda da ortada kasıbın başı yarılır. Belə ki, atdırdığın daş sənin başını yarası deyil...

İndi ya gərək elin dediyi ilə oturub-durasan, ya da başın daşdan-daşa dəyməyincə ağlın başına gəlməyəcək, bunun üçün isə həm başın əziləcək, həm də vaxtın gedəcək. El isə bir ağıllı başın min başı saxladığını bilir, gec, ya tez sənin boş başını ağıllı başla əvəz edəcək. Baş-başa verməyincə, daşın yerindən qopmadığını sən də bilirsən. Ona görə də parçala, dağıt, didərgin sal bu eli, qoyma baş-başa versinlər, suyunu kəs, qazını kəs, işığını söndür, yollarını dağıt, məktəblərini bağla, məscidlərini uçur, adamlarını özünə ayaq qayır, topla altına ki, köçən köçsün, ölən ölsün, qalan da sənin iylənmiş yekə başını gəzdirmək üçün üfunətli ayaqların olsunlar, baş yoldaşların olmasalar da, aş yoldaşların olsunlar. Bircə çalış başı namərd əlinə keçirmə, keçirdinmi nə kəsər, nə bağışlar, belə yaşamaqdan da başın çox ağrıyar. Bilirsən da, baş ağrıyanda da Allah yada düşər. Allahın qarşısında isə üzün qaradır...

# XOCALI FACİƏSİ




Müharibə bəşəriyyətin ən pis röyası, soyqırımı isə heç sağalmayan yarasıdır. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olmuşdur. Ötən əsrin ən böyük faciələrindən biri kimi tarixdə iz salan Xocalı soyqırımı erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifələrindəndir.

Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi – Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş təzahürüdür"

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri sovet ordusunun Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərinin dinc əhalisini kütləvi şəkildə qətlə yetirmək məqsədilə silahlı hücuma keçdi. Yeddi min nəfər əhalisi olan bu şəhər yerlə yeksan edildi, sakinləri soyqırımına məruz qaldı.

Bu soyqırımını törədərkən erməni şovinistlərinin əsas məqsədləri əhalini qəddarcasına öldürməklə yanaşı, Azərbaycanın qədim dövrlərinə aid tarixi və mədəni abidələrə malik bir şəhəri olan Xocalını da yer üzündən silmək idi.

Beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn norma və prinsipləri heçə sayılaraq dinc əhaliyə, xüsusilə də ahıl şəxslərə, qadınlara, uşaqlara qarşı ən amansız qətl üsullarından istifadə edilmişdir. Nəticədə 613 nəfər, o cümlədən onlardan 106 nəfər qadın, 63 nəfər uşaq və 70 nəfər ahıl şəxs xüsusi qəddarlıqla öldürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 132 uşaq valideynlərdən birini itirmiş, 487 nəfər ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür, onlardan 150 nəfərin taleyi isə naməlumdur. Soyqırımı zamanı öldürülənlərdən 56 nəfəri ağlasığmaz şəkildə xüsusi qəddarlıqla qətlə yetirilmiş, insanlar diri-diri yandırılmış, onlara dəhşətli işgəncələr verilmişdir.

Xocalı soyqırımına ilk dəfə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə ölkə Parlamenti tərəfindən siyasi-hüquqi qiymət verilmiş, 26 fevral tarixi Xocalı Soyqırımı Günü elan olunmuş və törədilən cinayətin beynəlxalq ictimaiyyətə çatdırılması, təqsirkarların ədalət mühakiməsinə verilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi "Xocalıya ədalət" beynəlxalq kampaniyası Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması, ona hüquqi və siyasi qiymətin verilməsində olduqca mühüm rol oynayır. Həyata keçirilən məqsədyönlü fəaliyyət nəticəsində 17 dövlətin qanunvericilik orqanı, həmçinin ABŞ-nin 24 ştatı, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı tərəfindən Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən çoxsaylı qətnamə və qərarlar qəbul edilmişdir.

Ermənistanın Azərbaycana qarşı terror siyasəti bu gün də davam edir. Bu ölkə hazırda Azərbaycana qarşı mina terroru siyasəti həyata keçirir. Qarabağda işğal dövründə və ondan sonra basdırılan minalar hər gün günahsız insanların canını alır, sağlamlığına ziyan vurur. Bu faciələrin hər biri Ermənistanın yaratdığı mina təhlükəsinin dəhşətlərini bir daha sübut edir.

Ədalətin bərpası və insanlığa qarşı yönəlmiş bu kimi soyqırımı aktlarının təkrarlanmaması üçün dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən Xocalı soyqırımına və Ermənistanın törətmiş olduğu digər müharibə cinayətlərinə beynəlxalq siyasi-hüquqi qiymət verilməli, törədilmiş soyqırımının günahkarları beynəlxalq məhkəmə qarşısında cavab verməli və bu istiqamətdə qəti tədbirlər görülməlidir.

İnsanlıq tarixinə qara ləkə kimi yazılan bu soyqırımı heç vaxt unudulmasa da, işğal altındakı torpaqların azad edilməsi Azərbaycan xalqı üçün təsəlli oldu. İndi azərbaycanlıların yeganə istəyi Xocalı qətliamını törədənlərin mühakimə olunması və ədalətin təmin edilməsidir.

Xocalı sakinləri dövlətin hər tərəfli diqqət və qayğısı ilə əhatə olunublar, artıq 44 günlük müharibənin qalibiyyətini yaşayan xocalılar tezliklə doğma yurduna dönmələrini səbirsizliklə gözləyirlər. Bu böyük qələbəni bizlərə yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirik, qazilərimizə şəfa, Cənab Ali Baş komandan İlham Əliyevə uzun ömür arzulayırıq!

Yaşasın bütöv Azərbaycan!

Qarabağ Azərbaycandır!

**Xatirə DAŞDƏMİROVA**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji*

## ÇİN GÜRCÜSTAN VƏTƏNDAŞLARI ÜÇÜN VİZA REJİMİNİ LƏĞV EDİB



Çin Gürcüstan vətəndaşları üçün viza rejimini ləğv etmək qərarına gəlib. Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze hökumətin iclasında deyib.

"Çin Xalq Respublikası Gürcüstan vətəndaşları üçün vizasız rejim tətbiq etmək qərarına gəlib. Gürcüstan vətəndaşları Çində ardıcıl 30 gün vizasız qala biləcəklər", – deyə Baş nazir bildirib.

Onun sözlərinə görə, vizasız rejim siyasi, iqtisadi və mədəni inkişaf baxımından yeni imkanlar yaradacaq.

Qeyd edək ki, 2023-cü ilin iyul ayının sonunda Gürcüstan və Çin ikitərəfli münasibətlərin yeni səviyyəsinə – strateji tərəfdaşlığa keçidi elan etdilər. Sentyabrın 12-dən isə Gürcüstan Çin vətəndaşları üçün vizasız rejim tətbiq edib. Onlar Gürcüstana turizm məqsədi ilə daxil ola və 30 günə qədər ölkədə qala bilərlər.

## SALOME ZURABİŞVİLİ SEÇKİ MƏCƏLLƏSİNƏ EDİLƏN DƏYİŞİKLİYƏ VETO QOYACAQ



Gürcüstan Prezidenti Salome Zurabişvili hakim "Gürcü Arzusu" partiyasının ölkənin Seçki Məcəlləsinə etdiyi düzəlişi veto edəcək. Bu barədə Prezident Administrasiyasının bəyanatında bildirilib.

Qeyd olunub ki, bu düzəlişlər Venesiya Komissiyasının və Avropa İttifaqının 9 tövsiyəsinə ziddir.

"Bu gün Baş nazir ilk beynəlxalq səfərini Brüsselə edərkən və ölkədə beynəlxalq müşahidə missiyası varkən Gürcüstan parlamenti, hakim çoxluq Seçki Məcəlləsinə həm Venesiya Komissiyasının, həm də Aİ-nin 9 tövsiyəsinə zidd olan düzəlişləri qəbul etdi", – deyə S.Zurabişvili qeyd edib.

O bildirib ki, qəbul edilən düzəlişlərlə Seçki Məcəlləsi hakim "Gürcü Arzusu" partiyasının maraqlarına uyğunlaşdırılıb. S.Zurabişvili seçkilərin tək partiya tərəfindən təşkil edilməsi riski olduğunu, hakim partiya tərəfindən idarə edilən qərəzli seçki prosesinə həm cəmiyyət, həm də beynəlxalq ictimaiyyət tərəfindən etimadsızlıq göstəriləcəyini qeyd edib.

Vurğulanıb ki, Prezident ölkənin Avropa yoluna uyğun gəlməyən bütün digər qanun layihələri kimi bu düzəlişi də veto edəcək.

## Aİ KOMİSSARI: GÜRCÜSTAN ÜÇÜN 1,9 MİLYARD AVRO SƏFƏRBƏR EDİLİB



Avropa İttifaqı (Aİ) İqtisadi və İnvestisiya Planı çərçivəsində Gürcüstan üçün 1,9 milyard avro səfərbər edib. Bu barədə Aİ-nin qonşuluq və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi ittifaqın Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borell və Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə mətbuata birgə açıqlamasında bildirib.

O qeyd edib ki, sözügedən vəsait enerji, nəqliyyat, kiçik və orta sahibkarlığın inkişafı, insan haqları və digər sektorlara yönəldiləcək.

O.Varhelyi daha sonra "X" platformasındakı paylaşımında bu vəsaitin 205 milyon avrosunu qrantların təşkil edəcəyini qeyd edib. O, Aİ maliyyəsinin eyni zamanda Qara dənizin dibi ilə elektrik enerjisi və fiberoptik internet kabelinin çəkilməsinə xərclənəcəyini deyib.

# SÖZÜYLƏ BÜTÖVLƏŞƏN XAQANİ QAYIBLI



Xaqani Qayıblı mənim qədim-qayım dostumdur. Sözü urvatlayan, sözün başına pərvanə kimi dolanan, sözü sevgili kimi əzizləyən dostum. Dostum özünü sözə qurban verənlərdən, sözün içində özünü əridib, itirənlərdəndir.

Mən ilk olaraq Xaqaninin özünümü tanıdım, yoxsa sözünümü? Bəlkə mən Xaqanini tanıyanda sözünü də tanımışam. Burasını deyə bilməyəcəm. O üzdən ki, mən onu tanıyıb dostlaşdıqca sözünü də tanıdım, sözüylə də məhrəmləşib, doğmalaşdım, dostlaşdım.

Xaqani sözüylə bütövləşə bilənlərdəndir. Xaqanini sözdən kənarda təsəvvür etmək belə mümkün deyil. Onun dağlardan, daşlardan süzülüb gələn saf su misalı arınmış sözünün sehrinə düşməmək də mümkünsüz.

Xaqani sözü urvata mindirənlərdəndir.

Mənim Xaqani Qayıblıyla tanışlığımın tarixçəsi çox uzaq keçmişə, gedib ömrümüzün sübh çağlarına dayanmalıdır. Bu tanışlığın nə vaxt, harada baş verdiyini xatırlamaq da olmur. Əslində biz elə doğulduğumuz gündən tanış olmuşuq. Niyəsini deyimmi? Biz dabanbasaraq doğulmuşuq. İlk gözümüzü açanda eyni göyə baxmışıq. Birimiz Qarayazıdan, birimiz Qaraçöpdən. Xaqani Uzundərənin o üzündən, mən bu üzündən bozqırların yazda yaşıllaşan, yayda bomboz bozaran üzünü görmüşük. Keşişin yovşan ətri qüzeydən Qaraçöpə dolanda, güney tərəfdən Qarayazıya axıb. İkimizin də ayağımız o yerlərin gülünün-çiçəyinin, çəmən-çayırının şehlərinə bələnib. Ceyrançöldən, Qaradüzdən, Arxaşandan keçən yollar nə qədər sağa-sola burulsa da, bir gün bizim yollarımız da kəsişməli deyildimi?

Yol demiş, Xaqanini Qaraçöpdən başlayan, Qavırrının körpüsündən keçən yollar haralara aparsa da, yenə ata ocağına, doğma yurda döndərir. Bu yollar yayda yaylaqlara aparırdı, qışda qışlaqlara. Bu yollar neçə körpülərdən keçdi, gedib böyük şəhərlərə çıxdı. Neçə ölkədən keçirdi bu yollar Xaqanini. Ancaq bu yollar örkən sayağı nə qədər uzansa da gəlib doğanaqdan – Qaraçöpdən keçməli idi. Həm də bir dəfə yox, yüz dəfə, min dəfə. Xaqaninin yaddaşımda ilişib qalan iki misrası bu dediklərimi təsdiqləməyə yetər də, artar da:

*Yollar bu dünyanın örkənidirsə,*
*Körpülər yolların doğanağıdır.*

Xaqaninin qədim-qayım şeirlərindən biri "Yaşıl işıq" adlanırdı. 30-40 il əvvəlin şeiri olmalıdır. Orda Xaqanini yollarda sarı işıqlar ləngidir, qırmızı işıqlar qabağını kəsirdi. Onun şair məni bu sarı-qırmızı işıqların yaşıla dönməsini gözləyirdi. Ümidlə yaşıl işığın yanmasını, yolların açılacağını gözləyən şairin arzusu çin oldumu, o yaşıl işıq yandımı? O işığın yanmasını, yollarının açılmasını gözləyə-gözləyə Xaqani şeirdən şeirə qanadlandı, çiçəkdən çiçəyə uçqunan kəpənək misalı sözdən sözə qondu. Sözlər misralara, misralar yollara çevrildi. Bu yol bir könüldən min könülə gedən, könül-irfan adamlarının gedə biləcəyi bir yol idi. Bu yol enişli-yoxuşlu uzun bir yol olmalıydı. Hərdən mənə elə gəlir ki, Xaqani ömrünü bu yollarda keçirir, bu yollarda keçirməyə məhkumluğunu yaşayır.

Xaqaninin şeirlərindən boy verən kədər bəlkə də hamının yaşadıqları ilə eynidir. Amma onun kədəri həmişə "ətəyi belində gəlir". Bəs kədər başqa nə cür gəlməlidir? Üstəlik bu kədər ətəyini çirmələyibsə, bir şair ömrünü ziyarət edirsə, o ömrə qaynayıb-qarışırsa ondan başqa cür gəliş gözləməyə dəyərmi? Könül süzgəcindən keçib, sözə çevrilən kədər şeirdən beləcə boy göstərməli deyilmi? Sevinc ha deyil "ağırtaxta" yerişi ola, sevinc ha deyil gəlişi "şahgəldisinə" çevrilə, sən də durub çıxasan pişvazına.

Xaqanini içi mən qarışıq hamının doğması edən sözüdür. Bu söz özündə uşaq saflığı barındırır. Xaqani bu uşaq saflığını bir ömür yaşadanlardandır. Könlünü didən ağrı-acını, dərdi-azarı sözə çevirməkdən başqa bir yol qalmayanda Xaqani könül pıçıltılarına poetik don geyindirir, o pıçıltıları şeirə çevirir. Xaqani metromanlıqdan uzaq şairdir, elə hər gün oturub şeir yazmaq kimi bir istəyi də yoxdur. Sadəcə könlündəkilər şeirləşmək, söz biçimində şəkillənmək, görünmək istəyəndə şeir yazmağa baş vurur. Hələ "kəpənək dalınca qaçan vaxtından" "dərdin çəhliminə düşən", "ürəyini dərdlərin arxac yerinə" çevirən şair könlü dərdə qapı açır, onu doğması kimi qarşılayır. Xaqani dünyanın dərdi mənəmi qalıb deyərək, dünyanın bala dərdini eyninə almayanlardan ola bilməzdi. Heç olmadı da. Sənətin, poeziyanın yolu böyük dərdlərdən keçmirmi? O mənada Xaqaninin yaratdığı dərd obrazı canlıdır, sxematiklikdən uzaqdır, könüldən – içdən gələndir. Xaqaninin təqdim etdiyi dərd hamının doğmasına çevrilə bilir, hamı onu özününküləşdirib, qapı açır.

Xaqaninin hər şeiri etnik yaddaşımızın üzə çıxmış bir gizlini, şifrəsi çözülmüş bir sirli kodu kimi görünür. Onun şeirləri mənəvi dünyamızın sərhədlərini cızaraq, ruhmuzun çata biləcəyi ənginliyin, əlçatmazlığın konturlarını bəlli edir, gözümüz önündə dünəni, bu günü, sabahı canlandıran mənəvi-ruhi bir xəritəyə, etnik-milli kimliyimizi təsdiqləyən bəlgəyə çevrilir.

Xaqani mənim qayım-qədim dostumdur. Sözü urvatlayan, işi-gücü sözdən keçən dostum.

Altmışın – altunun mübarək, qardaş!

**Afiq MUXTAROĞLU**
*Gürcüstan, Qarayazı*

## QİYMƏTLƏNDİRMƏ VƏ İMTAHANLAR ÜZRƏ MİLLİ MƏRKƏZƏ YENİ RƏHBƏR TƏYİN OLUNUB




Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru **Nino Tsereteli** olacaq. O, bu günə qədər Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyində Ali təhsilin və Elmin İnkişafı Departamentinin rəhbəri vəzifəsini tuturdu.

Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi Nino Tseretelinin təyin edilməsi haqqında məlumatı 20 fevralda yayımlayıb:

*"Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru vəzifəsinə Nino Tsereteli təyin olunub. Gürcüstan Təhsil, Elm və Gənclər naziri Giorgi Amilaxvari görüş keçirərək yeni rəhbəri mərkəzin əməkdaşlarına təqdim edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.*

*Nazir görüşdə qeyd edib ki, təhsil sistemində Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz mühüm funksiyalardan birini yerinə yetirir və imtahanların təşkil edilməsi baxımından mərkəzin uğurlu fəaliyyətinin davam etməsi, yaxşılaşdırılması mühümdür.*

*Görüşdə Gürcüstan təhsil , elm və gənclər nazirinin müavini Qela Qeladze də iştirak edib.*

*Nino Tseretelinin təhsil sahəsində 20 illik təcrübəsi var. O, müxtəlif vaxtlarda Təhsil və Elm Nazirliyində, eləcə də Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzdə işləyib. 2019-cu ildən bu günə qədər isə Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin Ali təhsilin və Elmin İnkişafı Departamentinin rəhbəri vəzifəsini tuturdu".*

Xatırladaq ki, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru Sopio Qorqodze 2024-cü ilin 1 yanvarından vəzifəsini tərk edib.

Qaydalara əsasən, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru "Təhsil nazirinin təqdimatı ilə Gürcüstanın Baş naziri tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir".

## CARİ TƏDRİS İLİNDƏ BİRİNCİ SİNFƏ GEDƏN 15851 ŞAGİRD 7 YAŞINDA OLUB

2023-2024-cü tədris ilinin başlanğıcında birinci sinfə gedən şagirdlərin 15851 nəfəri 7 yaşında olub, onlardan 7638-i qız, 8213-ü isə oğlandır. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb. Məlumat "Gürcüstanda uşaqlar və yeniyetmələr – 2023" başlığı ilə ötən ilin dekabr ayının sonunda yayımlanıb.

მოსწავლეების რიცხოვნობა ზოგადსაგანმანათლებლო სკოლებში კლასებისა და ასაკის მიხედვით, 2023/2024
(სასწავლო წლის დასაწყისისთვის, ერთეული)

ცხრილი 9.

| ასაკი | კლასი | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | სულ |
| 6 | 39 455 | - | - | - | - | - | - | - | - | - | - | - | 39 455 |
| 7 | 15 851 | 39 172 | - | - | - | - | - | - | - | - | - | - | 55 023 |
| 8 | 399 | 18 678 | 38 836 | - | - | - | - | - | - | - | - | - | 57 913 |
| 9 | 74 | 434 | 18 992 | 39 564 | - | - | - | - | - | - | - | - | 59 064 |
| 10 | 15 | 69 | 435 | 18 393 | 37 392 | - | - | - | - | - | - | - | 56 304 |
| 11 | 9 | 28 | 73 | 343 | 17 311 | 37 693 | - | - | - | - | - | - | 55 457 |
| 12 | 1 | 5 | 16 | 46 | 368 | 17 795 | 37 784 | 15 | - | - | - | - | 56 030 |
| 13 | - | 3 | 4 | 20 | 79 | 389 | 18 191 | 40 928 | 12 | - | - | - | 59 626 |
| 14 | - | 1 | 4 | 8 | 27 | 78 | 410 | 18 577 | 40 082 | 90 | - | - | 59 277 |
| 15 | 2 | 2 | 2 | 2 | 6 | 16 | 61 | 327 | 6 388 | 40 707 | 4 788 | - | 52 301 |
| 16 | - | 1 | - | 3 | 1 | 1 | 21 | 62 | 296 | 4 198 | 33 817 | 6 805 | 45 205 |
| 17 | - | - | - | 1 | 2 | 4 | 13 | 18 | 61 | 272 | 3 118 | 31 519 | 35 008 |
| 18 | - | 1 | - | 1 | 1 | - | 4 | 6 | 14 | 60 | 249 | 2 594 | 2 930 |
| 19 | - | - | - | 2 | - | - | 2 | 2 | 10 | 28 | 42 | 233 | 319 |
| 20 | - | - | - | - | - | - | 2 | - | 4 | 13 | 26 | 79 | 124 |
| >21 | - | 1 | - | - | 3 | - | - | 2 | 5 | 37 | 46 | 181 | 275 |
| **სულ** | **55 806** | **58 395** | **58 362** | **58 383** | **55 190** | **55 976** | **56 488** | **59 937** | **46 872** | **45 405** | **42 086** | **41 411** | **634 311** |

**წყარო:** საქართველოს განათლებისა და მეცნიერების სამინისტრო.

Məlumatda bildirilir ki, tədris ilinin başlanğıcında 39455 nəfər birinci sinif şagirdi 6 yaşında olub, onlardan 19287-si qız, 20168-i isə oğlandır.

Ümumilikdə isə 2023-2024-cü tədris ilində Gürcüstanın ümumtəhsil məktəblərində 634311 şagird təhsil alır ki, onlardan 305945-i qız, 328366-sı oğlandır. 1-ci sinifdə isə 55 806 şagird təhsil alır.

Adətən qanunla müəyyən edilmiş yaşda məktəbə daxil olan şagird məktəbi yetkin yaşda bitirir, lakin Milli Statistika Xidmətinin məlumatına əsasən, orta məktəblərdə 18 və daha yuxarı yaşda olan şagirdlər də təhsil alırlar.

Belə ki, cari tədris ilinin əvvəlində II sinifdə 1 nəfər 18 yaşlı şagird və 1 nəfər 21 və daha yuxarı yaşlı şagird təhsil alır; 1 nəfər 18 yaşlı və 2 nəfər 19 yaşlı şagird IV sinifdə təhsil alır. Həmçinin cari tədris ilinin əvvəlində yaşı 21 və yuxarı olan 1 nəfər II və 3 nəfər V sinif şagirdi olub.

Rəsmi məlumatlara görə, birinci sinif şagirdləri arasında yuxarı yaşlı şagirdlər də var: 15 yaş (2 şagird), 12 yaş (1 şagird), 11 yaş (9 şagird), 10 yaş (15 şagird), 9 yaş (74 şagird), 8 yaş (399 şagird).

Qeyd edək ki, Milli Statistika Xidməti məlumatların mənbəyi kimi Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyini qeyd edir.

## "ALİ TƏHSİL HAQQINDA" QANUNDA HANSI DƏYİŞİKLİKLƏR EDİLƏCƏK?



"Ali təhsil haqqında" Gürcüstan qanununda həyata keçiriləcək dəyişikliklərin siyahısı məlumdur. Gürcüstan parlamenti bu dəyişikliklər üzərində yaz sessiyası çərçivəsində işləyəcək.

Təhsil, eləcə də universitetlərin avtorizasiyası məsələləri ilə bağlı bir çox dəyişikliklər həyata keçiriləcək.

Həmçinin birillik (60 kredit) magistratura təhsil proqramının hazırlanmasından söhbət gedir. Həmin proqramı seçən şəxs ümumi magistratura imtahanı verməli olmayacaq. Amma bu halda həmin proqramı başa vurmaq doktorluq proqramında təhsili davam etdirmək üçün əsas olmayacaq.

***Təhsil, Elm və Gənclərin Məsələləri üzrə Komitənin 2024-cü il üçün fəaliyyət planında ali təhsil istiqamətində qanunvericilik dəyişikliklərindən sonra aşağıdakıların həyata keçiriləcəyini oxuyuruq:***

- Distant qayda ilə peşə proqramlarının həyata keçirilməsi imkanları müəyyən olunacaq;
- Elektron təhsil konsepsiyasında düzəlişlər olunacaq və yenidən formalaşdırılacaq;
- Proqram yenidən akreditasiyadan keçərsə magistratura təhsilinin tamamilə elektron həyata keçirilməsi mümkün olacaq;
- Elektron təhsil komponentindən qismən və ya tam istifadənin mümkün olacağı təhsil sahələrinin siyahısını Təhsil, Elm və Gənclər naziri müəyyən edəcək;
- Ən azı 60 kreditdən ibarət (tənzimlənən təhsil proqramları istisna olmaqla) magistratura proqramını hazırlamaq mümkün olacaq, onun başa çatması doktoranturada təhsilin davam etdirilməsi üçün əsas olmayacaq;
- Ümumi magistratura imtahanını vermək ən azı 60 kreditlik magistratura proqramına qəbulun ilkin şərti olmayacaq;
- Tədris universiteti ali təhsil müəssisəsi növlərindən çıxarılacaq və universitet termini yeni redaksiyada formalaşdırılacaq; konsepsiyanın hökumət tərəfindən təsdiqi olmadan hüquqi şəxslər avtorizasiya üçün ərizə verə bilməzlər;
- Tələbə yerlərinin maksimum sayının müəyyən edilməsi/tələbə yerlərinin maksimum sayının artırılması barədə qərar qəbul edərkən, akademik tibbi ali təhsil proqramı həyata keçirildikdə (akreditasiya çərçivəsində tələbələrin maksimum sayı müəyyən edilmədikdə) avtorizasiya şurası qeyd olunan proqramda tələbə yerlərinin sayını müəyyən edəcək;
- Ali təhsil müəssisələrinə dissertasiya şuralarının formalaşdırılması qaydalarını müəyyən etmək imkanı veriləcək; Avtorizasiya Şurası tələbə qəbulu hüququnu təkcə quruma görə deyil, həm də ali təhsil səviyyələrinə görə məhdudlaşdırmaq səlahiyyətinə malik olacaq;
- Dekan səlahiyyətlərini icra edən şəxsin 6 aydan çox olmayan müddətə təyin edilməsi məsələsi tənzimlənəcək.

Qeyd edək ki, üçillik bakalavr və birillik magistratura təhsil proqramlarının işlənib hazırlanması qaydası Mixail Batiaşvilinin təhsil naziri olduğu dövrdə icra müddəti göstərilmədən təsdiq edilib.

Qeyd olunan dəyişikliklər Gürcüstan rəhbərliyi tərəfindən parlamentə təqdim olunacaq və komitə və sessiya müzakirələrindən sonra təsdiqlənəcək.

*Səhifədəki məlumatlar "edu.aris.ge"saytından götürülüb*

*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# STALİNİN TAPŞIRIĞI VƏ YA "QLAZOK"DAN ÖZÜMÜZƏ BAXANDA



Senzura – bu ifadə bu gün xoşumuza gəlməsə də, sən demə, uzun və təzadlı bir tarixi varmış. Platon öz tələbəsi Sokratın ölüm səbəbi haqqında yazırdı ki, eramızdan əvvəl 399-cu ildə Sokrat Afina gənclərinin şüurunu korlamaqda və dinsizlikdə təqsirli bilinərək ölüm cəzasına məhkum olundu. Sonralar bu qadağalar elmdə, dövlətçilikdə, siyasətdə böyük bir tarix yaşadı. İndiki terminlə desək, senzura uzun və qaranlıq bir yol keçdi. Yalnız 1766-cı ildə ilk dəfə İsveç qanunla senzuranı qadağan edən ilk ölkə oldu. Əlbəttə, hələ demokratiya dediyimiz quruluşa çox vardı. Hələ tarixin neçə imperiyalar dağıdacaq zamanı, neçə hakimlər susduracaq qılıncı vardı.

Bizim yaşamağa məcbur olduğumuz cəmiyyətlərdə bu qadağalar hakim idi. Hökümətin qaydaları ilə elə sapı özümüzdən olan baltalar "dom Feyzulla bomba rabatay" deyərək neçə-neçə haqqı boğublar. Fikrim heç də tarix yazmaq deyil, amma bir gerçəkliyin izi ilə ayıbımızı açmaq istədim...

Rəsmi olmasa da elə dövlət tapşırıqları olur ki, hətta konstitusiya maddələrindən də kəsərli olur. 30-cu illərdə şəxsiyyətə pərəstişə aparan bütün yolların xəritəsi qanun şəklində yazılmamışdı ki, amma qadağalardan kənara çıxan hər adam yerindəcə məhv edilmişdi. Məqsəd dövlətçiliyi qorumaq idisə... yox-yox, mən qəti şəxsiyyətə pərəstiş yolunu dəstəkləmirəm, hələ ki fikrimin məqsədinə doğru gedirəm.

Deyilənə görə, müharibənin ilk ayları imiş. Hitler ordusu sürətlə irəliləyərkən Stalinə xəbər verirlər ki, ölkənin ucqarlarında əhali arasında təşviş var, cürbəcür şayiələr yaratmaqla ruh düşgünlüyü əmələ gəlir. Stalin təcili büronu çağırır və tapşırıq verir ki, qəti əhaliyə bəd məlumatlar verilməsin – itki sayı, geri çəkilmələr, aclıq, mühasirə və s. Qəzetlər və radio yalnız qələbəyə gedən və ya yaxınlaşan bir əhval ruhiyyədə yazılar və musiqili verilişlər verməlidir (Bax: Ştemenko S.M. "Baş ştab müharibə illərində").

Böyük ölkənin o biri başında nə baş verdiyindən xəbərsiz əhali "ana vətən çağırır" deyərək böyük ümid və inamla bacardığını əsirgəmirdi. Yəni insanlardakı ruh yüksəkliyi sağlam bədəndə sağlam ruhu əsas götürürdü. Əsəbi rahat insanların mübarizəsi də rahat qələbə yönümlü idi. Müharibədən sonra da bu təcrübənin yararlılığı davam etdi. Sosializm qadağaları, senzuralar, yalançı təbliğat o dərəcədə güclü idi ki, əhali sanki İkinci Dünya müharibəsinin fəsad və nəticələrindən xəbərsiz xoşbəxt yaşayırdı. Nə bir kriminal xəbəri, nə də bir sosial faciəni ictimailəşdirmək olmazdı. Hətta 80-ci illərin ərzaq qıtlığı belə mətbuatda hallandırılmırdı. O nəhəng ölkədə nə bir cinayət, nə bir oğurluq, nə bir qəza ictimailəşmirdi.

1985-ci ildə Mixail Qarbaçovun SSRİ-yə katib gəlişi yenidənqurma, demokratiya, aşkarlıq devizini də özüylə gətirdi. Aşkarlıq olsun deyə ilk dəfə atom sualtı gəmisinin batması və heyətin faciəli ölmünü olduğu kimi əhaliyə çatdırılması guya demokratiya təcəssümü idi, əslində isə bu götürülən senzuranın özüylə bərabər gətirdiyi aşkarlığın uzun, incə bir yolundayıq gündüz, gecə...

Əvvəl cürbəcür qəzetlər çıxdı, nələr yazmırdı o qəzetlər. Qaqarinin sağ olmasından-filan xəzinənin mənbəyinə qədər, demək olar ki, əksər insanları öz əsarətinə almışdı. Sonralar özəl televiziyalar, radiolar fəaliyyətə başladı. Artıq əhalinin özünün də xəbəri yox idi ki, daha uşaqları ixtisaslı fakültələrdə yox, nevroloq və psixoloq fakültələrində oxutsalar yaxşı olardı. Gələcək nəsil artıq psixoloji baxımdan yararsızdır.

Bax indi keçirəm yazımın mustafasına, "qlazok"dan baxdığımız faciəyə.

Aşkarlığın bizə yaşatdıqlarını sadalasaq 14 milyard sinir hüceyrəmizin fəryadıyla qarışar. Sizcə, elə gününüz olurmu ki, qan qaraldan xəbər olmasın. Saytlar dəridən-qabıqdan çıxırlar ki, əcaib başlıqlarla oxucuya linki açdırmağı bacarsınlar, təki "bəyən" sayı və şərh sayı çox olsun. Bir də görürsən başlıq gedir: "Ər arvadını öldürdü, səbəbi şərh bölməsində". Onsuz da onun iki səbəbi ola bilər: ya o adam xəstədir, ya da qısqanclıq zəminindədir. Heç oxumağa dəyirmi ki?!.

Elə bir kənd yoxdur ki, orada faciəli hadisə olmamış olsun. Ona görə kənd dedim ki, kənddə hamı bir-birini tanıyır. Bakıda baş vermiş son ailə faciəsi kimsənin sığortalanmadığı hadisədir. Aristotel hələ eradan qabaq deyibmiş ki, şəxsiyyəti formalaşdıran 70 % mühitdir. Mən də XXI əsrdə deyirəm ki, 95 % mühitdir. Biz hamımz mühitin yetirmələriyik. Hansı valideyn istəyər ki, övladı pis olsun. Yəqin ki, hər kəs öz ailəsini hamıdan çox istəyir və uyğun tərəfini də hamıdan yaxşı bilir. Bir ailənin soyqırımı bu qədərmi asan ki, onu bu qədər müzakirə etdirirsiniz...

Jurnalist etikasından, vicdanından uzaq kəslər! Hər gün bir uyğunsuz xəbərlə mövzunu təzələyir, güya yeni bir xəbər kimi reytinq axtarırsınız. Kiminsə faciəsini bu qədər vasitəyə çevirməyin, nolar. Hansısa bir axmaq onu çəkdi (necə bacarıb, bilmirəm). Bəs siz niyə paylaşırsınız. İstəmədən hər yerdə adamın qarşısına çıxır. İnsafınız yoxdurmu?!



Məktəbdə uşaqlar maraqla bir-birinə videolar, şəkillər göndərirlər, o mövzudan danışırlar, hətta qızlar deyir ki, müəllim, adam da qorxur, sanki arxadan baltalı kimsə gəlir. Bax bu da bizə senzurasız aşkarlığın gətirdikləri. Əgər məndə səlahiyyət olsaydı yumşaq senzura tətbiq edərdim. Ən azından kriminal xəbərlərin paylaşılmasını qadağan edərdim.

Sağlamlığın kökündə iki səbəb durur: hərəkət və sinir. Texnologiya qan dövranını ləngitməklə laxtalanmanı artırdı, nəticədə orqanizm bir virusa qarşı antiteli hazırlaya bilmir. Aylarla öskürəyin yesiri olur, amma heç tutulan oynaqların, dəyişən rənginin, üyüşən barmaqların səbəbinin fərqində olmadan nəticəni düşünürlər. Medianın üstümüzə bomba kimi tökdüyü əsəb sarsıdan informasiyanın fəsadını yazsam bir qəzet yetməz. Mən özümüzə "qlazok"dan baxanda internetdə senzura istəyərdim. Bəlkə onda "qlazok" tərs göstərməzdi. Özümüzü stresdən qoruyaq. Vəssalam!

Sözümün canı: mən qəza xəbərini eşidən müxbirin reportaj hazırlayacağına sevincinin və növbə dəyişərkən həkimlərin bir-birinə bol xəstə arzulamağının şahidi olmuşam. Görəsən Şekspir Hamletin monoloqunu bu dövr üçün yazsaydı "hansı şərəflidir" deyərdi?..

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GÜNÜMÜZÜN XƏSTƏLİYİ



Psixiatrik xəstəlikləri qədim dövrdə inanca bağlayıb, şeytan əməli olduğunu düşünürdülər. Psixiatrik xəstələri müxtəlif ayinlərlə, dualar oxumaqla, qurbanlar verməklə müalicə edirdilər. Dövrümüzdə tibb yüksək inkişaf mərhələsini yaşayır. Demək olar ki, hər xəstəliyin çarəsi tapılıb. Ancaq psixiatrik xəstəliklər insanın düşüncəsinə və davranışlarına təsir edən, dəyişən xəstəlik olduğu üçün bir çox hallarda müalicəsi çətin olur. Psixiatrik xəstəliklərin geniş yayılmışları arasında depressiyanı, şizofreniyanı, panikanı misal çəkmək olar.

Hər bir insanda zaman-zaman əsəb problemləri əmələ gələ bilər. Bu normaldır, ancaq tez-tez baş verdikcə bu, artıq psixi xəstəliyin əlaməti olur. Psixi xəstəliklər insanın həyatını alt-üst edir, bütün həyatımızı davranışlarımız və sözlərimizlə ifadə edirik. Problemli olduğumuzda bu, artıq ətrafımızdakı insanlara da təsir edir. Belə insanlar məktəbdə, işdə, insanlarla münasibətdə balansı qoruya bilməyib anidən kiçik bir sözə də əsəbiləşirlər.

Belə bir fikir var ki, insanın psixikası onun iradəsindən aslıdır. Bu fikir tamamilə səhvdir, beyində baş verən psixi probləmləri insan idarə etmir, bu, artıq xəstəlikdir və həmin bu xəstəlik insanı idarə edir.

Son vaxtlar cəmiyyətdə intihar, depressiya və oxşar halların artması elə bu səbəbdəndir. Bunlar hamısı psixi travma və pozuntunun nəticəsidir.

Əsasən bu günlərdə ətrafımıza nəzər saldıqda bu cür insanlara rast gəlirik. Depressiya gündəlik istifadə olunan bir sözə çevrilib və kiçik bir sıxıntı keçirən şəxs özünü depressiyada hesab edir. Depressiya ağır bir xəstəlikdir, depressiyada olan şəxs hər şeydən küsür, ümidsiz olur, gələcəyə dair heç bir ümidi və planı olmur, həyatda heç nədən zövq ala bilmir, günahkarlıq duyğusu olur, "mən heç kimə lazım deyiləm, bu həyatda artıq bir yükəm" fikri ağıllarından çıxmır. Bunun əsas səbəbi isə xəstənin bu vəziyyətini görən yaxınlarının psixoloji yardım almaqdan çəkindirən faktorlardır. Gənclərin psixi problemi olduğu zaman "psixoloqa psixlər gedir", "depressiya o qədər də ciddi bir şey deyil, cavandır, özü həll edə bilər" və bu kimi xalq arasında güclü batil inanclar hər şeyi korlayır. Bu batil inanclar səbəbindən hər gün sonu bitməyən faciələr törədilir.

Çoxlarınız bu yaxınlarda baş vermiş – balta ilə öz ailəsini qətlə yetirən şəxs haqqındakı xəbərlərə təəssüflər içində qulaq asıb, seyr etdiniz. Kiminiz qınadınız "narkoman imiş, iynədən vurub, atasınıanasını öldürüb" dediniz, kiminiz "malmülk üstündə eliyib" dediniz. Hər şey bu deyimlər üstündə baş verir axı... Sonra nə oldu bəs? Aparılan araşdırmalar nəticəsində şəxsin travmalı olduğu, psixoloji problemləri olduğu meydana çıxdı. Uşaq vaxtı baş beyin nahiyəsindən aldığı zərbə nəticəsində sağalmayan yarası olduğu məlum oldu.

Hadisədən sonra qohum-əqrəbalarının verdiyi müsahibələrə qulaq asdım. "Biz demişdik bu uşaq xəstaxanada qalmalıdır, problemlidir, valideynləri bizə qulaq asmadılar, düzələcək dedilər, budur, öz övladları qatilləri oldu". Bu sözləri eşidəndə bir anlıq durdum, doğrudan da bunları deyən qohum-əqrəba görəsən haçansa "uşaq dəlidirmi psixoloqa aparırsan" demişdirmi deyə düşündüm. Kim bilir o an hansı şəxsiyyət pozuntusunu yaşayırdı. Anasını, atasını, öz doğma bacı-qardaşını hansı cismdə gördü ki, bu qətliamı törətmək onun üçün bu qədər asan olub.

Statistikaya görə, hər il dünyada bir milyona yaxın insan intihar edir. 25 milyon insan şizofreniyadan, 38 milyona yaxın insan epilepsiyadan əziyyət çəkir. 200 milyona yaxın insan isə ömründə ən azı bir dəfə depressiyaya düşür. Lakin buna baxmayaraq, bir çox insanlar psixi pozğunluğu olan yaxınları barəsində ətrafda duyulmaması üçün məlumatın gizli saxlanmasını istəyirlər.

Nə vaxt psixoloji problemin, xəstəliyin, həkimə getməyin, dərman qəbul etməyin ayıb bir şey olmadığını anlayacağıq axı? Gec olmadan, insanlar ölmədən, intiharlar yaşanmadan ətrafımızdakı bu vəziyyətdə olan insanlara yardım etməliyik. Çünki bir gün kimin başına nə gələcəyini bilmirik. Heç kimi yaşadıqlarına görə qınamayasan gərək, çünki bu həyatda qınadıqlarımız imtahanımız, güldüklərimiz isə göz yaşımız ola bilər.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# TƏLƏBƏLƏR NƏ İSTƏYİRLƏR?



Tələbə adını qazanmaq üçün çoxlarımız imtahana aylar qalmış, bəzilərimiz isə 1-2 il əvvəldən hazırlaşmağa başladıq. Qarşımıza bir məqsəd qoyduq və uğurlu olacağına inandıq. Yuxusuz keçən gecələr, bəzən ac məktəbdən çıxıb əlavə dərsə getmək, universitetə qəbul olmamışdan öncə özümüzə verdiyimiz sözlər, məsələn, qəbul olum, heç nə istəmirəm, dərslərimə vaxtı vaxtında hazırlaşacam, imtahana bir gün qalmış yox, bir ay əvvəldən hazırlaşacam, çalışacam ki, tələbə haqqımı tələb edim və bu kimi sözlər qəbul olana kimi imiş. Hər kəsə şamil etmirəm, amma çoxumuzda bu, belə oldu.

Birinci semestrin son imtahanı idi. İmtahana vaxtından tez gedib, bilmədiklərimizi bir-birimizdən öyrənib, bir-birimizə dəstək olurduq. Dəftər əlimdə keçdiyimiz dərsləri təkrarlayarkən bir qızın divarın küncündə əyləşib ağladığını gördüm. Əvvəl ona yaxınlaşmağa çəkindim, çünki tanımırdım. Sonra yaxınlaşıb niyə ağladığını soruşdum. Başdan elə düşündüm ki, imtahandan kəsilib. Çünki testlər elektron olduğu üçün cavabları həmin dəqiqə öyrənmək olurdu. Qızın ağlamaq səbəbi imtahandan aldığı balın onu qane etməməsi imiş. Ondan imtahandan kəsilməyibsənsə niyə bu qədər ağlayırsan deyə soruşdum. Mənə verdiyi cavabdan sonra heç nə demədim, daha doğrusu nə deyəcəyimi bilmədim. Qız dedi: "Atam mənə demişdi ki, əgər imtahanlardan yüksək bal toplasan sənə əlini hansı telefona bassan onu da alacam. Axı indi az bal toplamışam, o qədər əziyyət boşa getdi"...

Adlarımızı bir-bir deyirdilər. Otağa daxil olduq. Amma bir nəfərin girməklə çıxmağı sadəcə 10 dəqiqə çəkdi. Səbəbini eşitdikdə bir az hirslənsəm də sonra öz-özümə dedim: "əşi, özü bilər, nə edirsə özünə edir". Sən demə bu oğlan həmin gün atası ilə maşın almağa gedəcəkmiş. Çünki ata oğluna söz verib ki, universitetə qəbul ol sənə istədiyin maşını alacam. Oğlan da sırf maşın üçün 1 il əvvəlcədən universitetə qəbul üçün hazırlaşıb. Bu qədər əziyyət sadəcə bir maşın üçün imiş. Bəs semestr imtahanından nəticəsi necə oldu? 10 dəqiqəyə yazılan imtahandan necə nəticə gözləmək olar. Kəsirlə gedib maşın aldı. Amma insan bəzən necə uğur qazandığının fərqində olmazmış. Çoxları əllərində olan şansları dəyərləndirə bilmirlər. Bəziləri imtahanı rahat verim, kəsirsiz qurtarım, heç nə istəmirəm deyərkən, bəziləri də yığa bildiyim qədər yüksək bal yığım, mənə maşın, telefon alsınlar deyirlər...

Əslində isə tələbə nə istəyir? – Telefon? Bahalı geyimlər? Maşın? Gündə bir restorana getmək?.. Düzdür, hər kəs eyni fikirdə ola bilməz, maşın, telefon istəyənlər də olur. Amma əsl tələbə üçün bunların heç bir önəmi yoxdur. Biz tələbələr dəstək, tələbə haqlarımızı istəyirik. Amma tələb etmirik, edə bilmirik. Çünki artıq bizdə elə hal yaranıb ki, elə düşünürük ki, bizi heç kim eşitmir, görmür, görməzdən gəlir. Bəlkə də görmək istəmirlər. Məsələn, artan kirayə pulu. Bir tələbə üçün yetərli olan bir və iki otaqlı evlərin qiyməti ilə dörd və beş otaqlı evlərin qiyməti arasında çox da fərq yoxdur...

Sonra da deyirlər tələbələr təhsillərini xaricdə davam etdirmək istəyir. Səbəbini soruşmurlar da. Bəs tələbələr niyə xaricdə təhsillərini davam etdirmək istəyirlər? Ümumiyyətlə, tələbələr nə istəyirlər? Onların istəkləri ilə heç maraqlanmışıqmı? – Bu suallar çoxları üçün maraqlı deyil. Tələbələrin sözlərini eşitmək istəmirlər. Çünki bilirlər ki, tələbə ilk öncə kirayə problemi ilə üzləşir. Buna görə də gənclər dəstək gördükləri xaricə üz tuturlar. Məsələn, Almaniya kimi bir çox ölkələrdə tələbələrə çox dəstək olunur. Xaricdə təqaüdlə təhsil alan tələbələr kirayə, qaz, su, işiq və s. pulu ödəmirlər. Maddi ehtiyaclarını dövlət qarşılayır. Bizdə isə belə deyil, çünki "artıq xərc"dir. Amma dövlətin büdcəsinə pul gəlsə idi belə olmazdı. Hər kəs öz cibini güdür. Tələbə də tələb etməkdən çəkinir. Çəkinməməlidir. Səbəbkar isə, nənələrimiz demiş, "taxtda" oturanlardır.

**Validə FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

İndi isə qayıdaq araşdırmamızın əsas məqamına.

Şəhərin köçəri həyatını və ya sənətkarlıq ənənələrini davam etdirən, demək olar ki, bütün dünya xalqları və ya etnosları az-çox qiymətli xalq yaradıcılığı, folklor nümunələri ilə zənginləşmişdir. Türkdilli xalqlar, lap elə götürək, tayfalar da istisna deyil! Üstəlik, türk xalqı çoxəsrlik inkişafının müxtəlif dövrlərində poetik yaradıcılıqla zəngin olan maraqlı və cazibədar folklor, lətifə, təmsil, atalar sözü və qısa həcmli nağıllar, zərif yumor hissi ilə zənginləşmiş hekayələr yaratmışdır. Məlumdur ki, Orta əsrlərdə ərəb Cuhanın gülməli macəraları məşhur idi, həmçinin "Bu Adamın lətifələri" və s. Cuha xüsusilə Yaxın Şərqdə məşhur idi. Sufizmin ən böyük nümayəndəsi Cəlaləddin Ruminin "Məsnəviyi-mənəvi"sində qadının çalmasına bürünmüş Cuha ilə namaz qılan qadın arasındakı çanaq sümüyünün uzunluğuna-qısalığına aid olan əlaqənin gətirildiyi Cuhanın ədəbsiz epizodu nəql edilir *(Mevlâna Celaleddin, Mesnevi Manevi, 1925-1933, t. 874, b. 3325-3338).*

Ruminin "Məsnəviyi-mənəvi"sinin ikinci cildində nəql olunan Cuha epizodu da diqqətə layiqdir, burada dəfn zamanı atasının cənazəsinə oğulun yas tutması təsvir edilir: "Ata, səni hara aparırlar? Axırda səni torpağa basdıracaqlar. Elə darısqal, elə qəmli evə aparırlar səni ki, orada nə xalı var, nə də həsir, nə işıq, nə də bir loxma çörək; Nə də xörək qoxusu var, nə qapısı var, nə də damı". Cuha bunu eşidəndə atasına dedi: "Atacan, vallah, bu adamı bizim evə gətirirlər" *(Elə orada, II cild. b. 3117-3338).* Bu epizodu ona görə xatırladıq ki, o, Gürcüstanda da geniş yayılmışdır və böyük populyarlığa malikdir. Bu, Cuhanın bizim ölkəmizə daxil olmasının da sübutudur. Halbuki bu heç də təəccüblü deyil, çünki şifahi xalq ədəbiyyatının məkanı müəyyən edilməmişdir, onun yayılma sahəsi genişdir və etnik sərhədləri tanımır.

Düşünürəm ki, Xoca (Molla) Nəsrəddin öz yumoru və zəkası ilə heç vaxt Cuhadan geri qalmır. Üstəlik, demək olar ki, o, bütün türkdili xalqların seçmə qəhrəmanıdır ki, bunun da yeganə iti qılıncı gülüşdür, bir çox cəhətdən keçid və gah yersiz hadisəni inkar etməyə, gah öz taleyini təqdim etməyə, gah da yadelli düşməni darmadağın etməyə və məğlub etməyə yönəlmiş gülüşdür.

Mübaliğə sayıla bilər, amma Xoca Nəsrəddinin lətifələrinin toplayıcısı və naşiri Memet Fuatın fikrincə, Yunus, Mövlanə, Övliya Çələbinin Anadolu mədəniyyətinin əsasını qoymaları əgər həqiqətdirsə, onda Xoca Nəsrəddini də onların yanında hesab etmək lazımdır *(Nasreddin Hoca Fıkraları, Derleyen Memet Fuat, İst. 2016, s. XIX).* Yaxın Şərqin mədəniyyət dünyasında gülüşün təsir gücünü də dərk etsək və xalqın qəhrəmanı və müdafiəçisi kimi ümumiləşdirilmiş portreti xalqın özünə məxsus olan Xoca (Molla) Nəsrəddinin populyarlığını unutmasaq, Memet Fuatın bu fikri əsassız görünməyəcək. Kiçik bir türk təmsili o dövrdə gülüşün böyük ictimai əhəmiyyətə malik olduğunu açıqaydın göstərir: "Bir vaxtlar acgöz və tamahkar bir sultan yaşayıb. Hər il adamları soyub, onlara vergi yazmaqla doymurdu. Yeni vergi qoyanda vəziri çağırıb soruşardı: "Camaat nə edir?" – "Camaat susur" cavabı olurdu. Amma bir gün yenə camaata yeni vergi yazıb camaatın nə dediyini soruşduqda vəzir ləyaqətli cavab verir: "İnsanlar heç nə demir, ağam, sadəcə gülürlər". Bu sözləri eşidəndə qorxan sultan ayağa qalxaraq qışqırır: "İndi məhv oluruq, vergini dərhal azaldın" *(Вах. Иностранная Литература, 1959, №1, стр. 265).*

İndi türk folklorunda gülüşün belə hər şeyə qadir gücü nə vaxt qazandığını dəqiq müəyyən etmək çətindir. Amma fikrimcə, bu, yəqin ki XIII əsrdə, Osmanlı türklərinin – oğuzların kiçik qolu olan əcdadlarının monqollardan geri çəkildiyi zaman baş verməlidir və onlar Şimali İran və Azərbaycan üzərindən Kiçik Asiyaya gələrək Səlcuq sultanlığının hərbi xidmətinə qədəm qoydular, taleyini əbədi olaraq onlarla bağladılar və Səlcuq xalqının həyat dövrünə əqli olaraq qarışdılar *(Миллер А.Ф., Краткая История Турции, М., 1948, стр. 8).*

Məhz bu dövrdə türk satirasının ağızdan-ağıza meydana çıxması üçün münbit zəmin hazırlanmalı idi. Onların düşündüyü kimi, iti təfəkkürlü Xoca Nəsrəddinin bu çətin və fırtınalı dövrdə doğulması təsadüfi deyildi.

Məgər yaşayırdı? Və ya o kim idi? İndi bu barədə sizə heç nə deyə bilmərəm! Bir şey dəqiqdir, Xoca Nəsrəddin şəxsiyyətinin konkretləşdirilməsi heç nəyi əlavə etmir, əksinə, xalqın böyük sevgi və şəfqətlə öz ümidi kimi heykəl qoyduğu ümumiləşdirilmiş tipi aşağılayır! Şəxsən mən akademik V.A.Qordiyevskinin nöqteyi-nəzərini olduqca düzgün hesab edirəm: "Bir vaxtlar Xoca Nəsrəddin var idi, çətin günlər yaşayırdı. O, savadlı, hazırcavab və zarafatcıl, məsxərəçi bir insan idi. O, xalqa xas olan sadə və onlara yaxın bir dildə söhbət edə bilirdi. Ondan ağıl öyrənirdilər. Lakin zaman keçirdi və onun tarixi görkəmi itirildi, "məsxərəçi və zarafatçıl" məzəli təlxəyə çevrildi. Müsibət ondan müdafiəçi yaratdı, o, nəinki gülürdü, həm də xalqın acınacaqlı vəziyyətini dərk edirdi və ona aşılayırdı. O, imkansızların mənafeyini qoruyurdu və bu məmləkət qarşısında qüdrətliləri təmsil edirdi" *(Анекдоты о Ходже Насреддине, М., 1957, стр. 253).* Bax, bu, Xoca Nəsrəddin simasının əsl anlayışıdır. Ona görə də, demək olar ki, bütün türkdilli xalqlar arasında onun pərəstişkarlığının yaradılmasını izah etməliyik.

Amma göründüyü kimi, insan təbiəti ümumilikdə konkretlik axtarmağa meyillidir. Başqa cür desək, ümumiləşdirilmiş bədii portretdə onu ilk növbədə "kim ola bilərdi?!" sualı maraqlandırır, dövrünün məşhur yazıçısı Tomas Mann bu haqda yazırdı: "Uşaqlıqdan cəmiyyətin istəyi məni özümdən çıxarırdı. Mütləq yaradıcılığın olduğu şəxsi (özəl) tapmaq. Mən insanların (kişiciklərin) bir az karandaşla rəsmlərini çəkirdim və onlar mənə gözəl görünürdülər. Amma mən onları camaata onların tərifini qazanmaq ümidi ilə göstərdiyim zaman məndən soruşurdular: "Bu kim ola bilər?" – "Heç kim" – Az qala göz yaşları ilə qışqırırdım – "Bu insandır, gördüyünüz kimi, onu mən çəkmişəm, adicə konturdur və başqa heç nə yoxdur". O vaxtdan bəri heç nə dəyişməyib. Camaat yenə təsdiq edir: "Bu kim ola bilər?" *(Манн Т., Собрание сочинений, т. IX, О себе и собственном творчестве, 1906-1964. М., 1960, стр. 11).*

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

29 FEVRAL
2024-CÜ İL
№ 04 (199)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## CƏLİL MƏMMƏDQULUZADƏNİN TBİLİSİDƏKİ EV-MUZEYİ BƏRPA EDİLİR



Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasından 155 il ötür.

Böyük ədibin yubileyi ilə əlaqədar təkcə Azərbaycanda deyil, Gürcüstanda da müxtəlif işlər görülür, layihələr icra olunur. Azərbaycanın Gürcüstandakı səfirliyinin və SOCAR-ın Gürcüstan nümayəndəliyinin təşəbbüsü və dəstəyi ilə böyük ədibin Tbilisidə yaşayıb yaratdığı evin bərpasına başlanılıb.

Ev-muzeyin himayədarı, Gürcüstanın Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İsak Novruzov “Report”un yerli bürosuna müsahibəsində deyib ki, böyük ədib uzun illər Tbilisidə yaşayıb yaradıb və “Molla Nəsrəddin” jurnalının ilk sayını da məhz bu şəhərdə nəşr etdirib. “Qeyrət” mətbəəsi də bu evin zirzəmisində fəaliyyət göstərib. Ev-muzeyin ədibin 150 illiyinə qədər bərpa olunacağı gözlənilirdi. Tbilisidə səfərdə olan Azərbaycanın rəsmi nümayəndələri ev-muzeyə dəfələrlə baxış keçiriblər və məkanın təmir olunması üçün müvafiq dövlət qurumları qarşısında məsələ qaldırıblar. Binanın bərpası ilə əlaqədar səfirlik ilə Tbilisi şəhər meriyası arasında danışıqlar aparılırdı. Sonda Tbilisi şəhər meriyası ev-muzeyin bərpasına razılıq verib və hazırda binada bərpa işləri gedir. Bərpa işlərinə bu ilin fevral ayında başlanılıb. Hazırda binada özülbərkitmə işləri görülür. Sonra binanın otaqlarının divarlarında bərpa işləri aparılacaq.

Onun sözlərinə görə, ev-muzeyinə sadəcə olaraq birinci mərtəbə və zirzəmi hissə aiddir, bu da ümumi sahənin 180 kvadratmetrini təşkil edir. Qalan 180 kvadratmetri isə ikinci mərtəbədə yaşayan ailələrə məxsusdur. Binanın bərpasına ümumilikdə 350 min lari vəsait ayrılıb. Bunun da 3 faizi SOCAR-ın Gürcüstan nümayəndəliyi tərəfindən ödəniləcək. Binada bərpa-bərkitmə işlərinin bu ilin avqust ayında başa çatdırılması nəzərdə tutulub. Bərpa-bərkitmə işləri başa çatdırıldıqdan sonra isə muzeyin təmirinə başlanılacaq. Muzeyin bərpası Azərbaycan dövlətinin maliyyə vəsaiti hesabına həyata keçiriləcək.

İsaq Novruzov bildirib ki, aprel ayında uzun illər nəinki Qafqazda, hətta bütün Yaxın Şərqdə yeganə illüstrasiyalı və rəngli satirik jurnal olan “Molla Nəsrəddin”in Tbilisidə ilk sayının işıq üzü görməsindən (7 aprel 1906-cı il) 118 il ötür.

Qeyd edək ki, ikiotaqlı muzey 200-dən çox yaşı olan ikimərtəbəli binanın birinci mərtəbəsində yerləşir. Deyilənlərə görə, vaxtilə binanın hər iki mərtəbəsi Mirzə Cəlilə məxsus olub. Sonradan binada ailələr məskunlaşıb, birinci mərtəbədəki ikiotaqlı mənzil ev-muzeyi kimi qorunub saxlanıb. 1997-ci il oktyabrın 11-də həmin evdə C.Məmmədquluzadənin ev-muzeyi açılıb.

Binanın fasadından tikilinin qəzalı vəziyyətdə olduğu aydın görünür. Pas atmış navalçalar və pəncərə məhəccərləri, ovulub dağılmış fasad binada uzun illərdir ki, heç bir təmir-bərpa işlərinin aparılmadığını əyani olaraq sübut edir. Yaxınlıqda yeni binanın inşa olunması da tikilinin fasad hissəsinə ciddi ziyan vurub. Onu da qeyd edək ki, C.Məmmədquluzadənin binanın fasadına vurulan xatirə lövhəsi də köhnəlib. Lövhədə gürcü və kiril əlifbaları ilə yazılan tanıtım məlumatlarındakı səhvlər də diqqət çəkir. Lövhədə yazılıb: “Azərbaycanın böyük demokrat ədibi Mirzə Cəlil Məmmədquluzadə 1897-1918-ci illərdə bu binada yaşayıb yaratmışdır. 1906-1918-ci illərdə məşhur “Molla Nəsrəddin” məcmuəsini nəşr etdirmişdir. (1866 Naxçıvan – 1931 Bakı)” yazısı əks olunub. Göründüyü kimi, ədibin anadan olduğu və öldüyü tarix də düzgün yazılmayıb. Ev-muzeyinin olduğu mənzilin interyerinin vəziyyəti də olduqca acınacaqlıdır. Otaqların tavan və bütün divarlarında dərin çatlar var. Divarlar hər an uçmaq təhlükəsi ilə üz-üzədir. Muzeyin yalnız bir otağında az sayda da olsa, müəyyən eksponatlar qorunub saxlanılıb. Bunlar əsasən C.Məmmədquluzadə və ailə üzvlərinin fotoşəkilləri, “Molla Nəsrəddin” jurnalının nüsxələri, məcmuədə dərc olunan Abdulla Şaiqin portreti, tar və kamança və digər materiallardır. Muzeyin eksponatlarının siyahısının heç vaxt tərtib edilmədiyi məlum olur.

Muzeydə bu günümüzə qədər mühafizə edilmiş eksponatların hazırda SOCAR-ın binasında saxlanıldığı bildirilir.

Azərbaycan ictimai fikrinin formalaşmasında misilsiz rol oynamış C.Məmmədquluzadənin Tbilisidəki ev-muzeyinin bərpası və təmiri böyük ədib və yazıçının 155 illiyinə ən böyük töhfələrdən biri olacaq.

## İSFAHAN ƏLİYEV BAŞ MƏŞQÇİ TƏYİN EDİLİB



Azərbaycanlı idmançı Gürcüstan Tayboksinq və Kikboksinq Milli Federasiyasının Kvemo Kartli bölgəsi üzrə baş məşqçisi təyin edilib.

Qurumun prezidenti Qoça Cavaxia bu vəzifəyə “Qaracalar” İdman Klubunun rəhbəri İsfahan Əliyevi gətirib.

Qeyd edək ki, İ.Əliyev 2015-ci ildən federasiyada həm idmançı, həm də məşqçi kimi fəaliyyət göstərir.

## QRİP VİRUSUNA YOLUXANLARIN SAYI ARTIR



Ölkənin tibb müəssisələrində qrip virusu əlamətləri olan xəstələrin sayı artmaqda davam edir. Bu barədə infeksionist Aleksandre Qoginava “İmedi” telekanalına müsahibəsi zamanı deyib.

Onun sözlərinə görə, Gürcüstanda qrip virusunun əsasən iki alt növü – A və V növləri müşahidə olunmaqdadır ki, bunlar ən təhlükəli respirator infeksiyadır. Mütəxəssis vətəndaşları gigiyena qaydalarına riayət etməyə, ictimai yerlərdə tibbi maskalardan istifadə etməyə çağırıb.

Gürcüstanın İnfeksion Patologiya və QİÇS Mərkəzinin direktoru Tengiz Tertsvadze 2024-cü ilin yanvar ayında ölkədə qrip virusu nəticəsində 3 nəfərin öldüyünü bildirib.

## ÖTƏN İL GÜRCÜSTANDA İŞSİZLİK SƏVİYYƏSİ 15,3 FAİZ TƏŞKİL EDİB




Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2023-cü ilin dördüncü rübündə Gürcüstanda işsizlik səviyyəsi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz azalaraq 15,3 faiz təşkil edib.

Məlumata görə, 2023-cü ilin son üç ayında muzdla işləyənlərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 74,3 min nəfər (8,4 faiz) artaraq 958,4 min nəfərə çatıb.

Gürcüstanda kişilər arasında işsizlik nisbəti ənənəvi olaraq qadınlardan daha yüksəkdir. Həmin göstərici qadınlar arasında 0,3 faiz, kişilər arasında isə 1,0 faiz azalaraq müvafiq olaraq 13,5 faiz və 16,8 faiz təşkil edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.